# M Ü Q A V İ L Ə
**№: _________**

*(Malların alqı-satqısı haqqında)*

**Bakı şəhəri** **_________ 20__-ci il**

Bir tərəfdən, Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq təsis edilmiş, öz Nizamnaməsi əsasında fəaliyyət göstərən, ________________________________ ünvanında qeydiyyatda olan və Direktoru ________________________ şəxsində təmsil olunan **"_________________" MMC/QSC/ASC** (bundan sonra "Alıcı" adlandırılacaq) və digər tərəfdən, Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq təsis edilmiş, öz Nizamnaməsi əsasında fəaliyyət göstərən, __________________________ ünvanında qeydiyyatda olan və Direktoru ________________________ şəxsində təmsil olunan **"_________________" MMC/QSC/ASC** (bundan sonra "Satıcı" adlandırılacaq);

Satıcı və Alıcı ayrılıqda "Tərəf", birlikdə isə, "Tərəflər" adlandırılacaq), aşağıdakı şərtlər əsasında bu alqı-satqı müqaviləsini (bundan sonra "Müqavilə" alandırılacaq) bağladılar:

## 1. MÜQAVİLƏNİN PREDMETİ

1. Müqaviləyə əsasən Satıcı Müqavilənin ayrılmaz tərkib hissəsi hesab edilən əlavələrində (bundan sonra "Əlavə(lər)") göstərilən çeşiddə, miqdarda və təsvir olunan texniki göstəricilərə malik malları (bundan sonra birlikdə "Mallar", ayrılıqda "Mal" adlandırılacaq) razılaşdırılmış çatdırılma qaydasında və müddətdə Alıcının mülkiyyətinə verməyi, Alıcı isə Malları hazırkı Müqavilədə nəzərdə tutulan şərtlərə uyğun qəbul etməyi və əvəzində müəyyənləşdirilmiş pul məbləğini (qiyməti) ödəməyi öhdəsinə götürür.

## 2. MALLARIN ÇATDIRILMASI VƏ TƏHVİL VERİLMƏSİ

1. Mallar Alıcının (onun nümayəndəsinin) Satıcıya (onun nümayəndəsinə) telefon (zəng və ya proqram tətbiqi yolu ilə), elektron poçt və ya kuryer (poçt) vasitəsilə bildirdiyi sifarişi əsasında tərtib edilən Əlavəyə əsasən Satıcı tərəfindən Alıcıya təchiz olunur. Tərəflərin razılaşması əsasında sifarişdə dəyişiklik edilə bilər.
2. Malların sifarişi qəbul olunarkən, Satıcının sifariş vaxtı öz ehtiyatında tam və ya qismən mövcud olmayan Malları Alıcıya təchiz etməmək və ya belə Malların alternativini Alıcıya təklif etmək hüququ vardır. Alıcı ona təklif olunan alternativ qismində təklif olunan malı sifariş və ya qəbul etməkdən imtina edə bilər.
3. Satıcı Malları müvafiq tara və qablaşdırmasında, Mallara aid olan ləvazimat və sənədlərlə (texniki pasportu, keyfiyyət sertifikatı, istismar təlimatı və s.) birlikdə, komplektliyi (dəsti, tərkib və ya ehtiyat hissələri) nəzərə alınmaqla, Alıcı tərəfindən müəyyən edilən qaydada Malların çatdırılma məntəqəsində öz vəsaiti və qüvvəsi hesabına təhvil verir.
4. Malların çatdırılma məntəqəsi, təchizat müddəti və qaydaları Müqaviləyə Əlavə(lər) ilə müəyyən edilir.

5. Malların təhvil-təslimi Tərəflərin səlahiyyətli nümayəndələrinin iştirakı ilə Təhvil-Təslim Aktı əsasında həyata keçirilir. Nümayəndələrin səlahiyyəti bir qayda olaraq Tərəflərin bir-birinə elektron poçt vasitəsilə ünvanladığı bildiriş məktubu və ya müvafiq qaydada təsdiq olunmuş etibarnamə əsasında müəyyən edilir.
6. Tərəflər Mallar təhvil verilərkən Alıcı tərəfindən Malların miqdarına və keyfiyyətinə dair hər hansı uyğunsuzluğun olub olmaması barədə yoxlama aparılması üçün 7 (yeddi) iş günü təyin edirlər.
7. Sözügedən müddət ərzində heç bir uyğunsuzluq bildirilmədiyi hallarda Mallar həm miqdar, həm də keyfiyyəti ilə bağlı qəbul edilmiş hesab edilir.
8. Yoxlamalar zamanı Müqavilə şərtlərinə uyğun keyfiyyətdə olmayan, miqdarı çatışmayan Mallar Satıcı tərəfindən müvafiq olaraq yenisi ilə əvəz olunur və ya tamamlanır.
9. Alıcı yoxlamalar zamanı keyfiyyət aşağı olan və/və ya kəmiyyətcə çatışmayan Malları qəbul etməkdən imtina edə bilər.
10. Aparılan yoxlamalar zamanı aşkar edilmiş qüsurlar hər iki Tərəfin birgə tərtib edəcəyi və imzalayacağı Qüsur Aktında əks olunur. Qüsür Aktında nəzərdə tutulan çatışmazlıqların aradan qaldırılması həmin Aktda qeyd olunan müddət ərzində Satıcı tərəfindən təmin edilir. Həmin müddətdə Satıcı tərəfindən mövcud qüsurlar aradan qaldırılmazsa, Alıcı həmin qüsurları özü və ya üçüncü şəxslər vasitəsilə aradan qaldıraraq bununla bağlı çəkdiyi xərclərin dəyərini Satıcıdan tələb edə və ya Satıcıya ödənilməsi nəzərdə tutulan ödənişlərdən tuta bilər.
11. Alıcının Mallara mülkiyyət hüququ o vaxt yaranır ki, onların dəyəri Alıcı tərəfindən tam ödəniləcəkdir.
12. Müqavilə ilə müəyyən olunmuş qaydada və şərtlərlə Malların Alıcıya faktiki təhvil verildiyi andan sonra Malların təsadüfən və ya qəsdən məhv olması (itirilməsi) və ya zədələnməsi riskinə görə Alıcı məsuliyyət daşıyır.
13. Mallar müvafiq standart və tələblərə uyğun qablaşdırılmalı və markalanmalıdır və daşınma zamanı Malların bütövlüyü və təhlükəsizliyini təmin etməlidir. Qablaşdırmanın ümumi (müvafiq standartlara cavab verən) şərtləri və (və ya) xüsusi (Alıcının əlavə tələblərinə cavab verən) şərtləri Müqavilənin əlavəsində müəyyən oluna bilər. Satıcı səhv qablaşdırma və markalanma səbəbindən baş verən Malların hər hansı itkisi və ya zədələnməsi halı üçün məsuliyyət daşıyır

## 3. MALLARIN QİYMƏTİ VƏ HESABLAŞMA QAYDASI

1. Müqavilə üzrə Malların qiyməti və ödəniş şərtləri Müqavilənin ayrılmaz tərkib hissəsi hesab edilən Əlavə(lər) ilə müəyyən edilir.
2. Müqavilə üzrə ödənişin valyutası Azərbaycan manatıdır (AZN).
3. Tərəflərin hər biri xidmət həyata keçirdiyi bankda bütün bank komissiyaları və digər ödənişlər üzrə xərcləri müstəqil şəkildə ödəyir.

## 4. TƏRƏFLƏRİN HÜQUQ VƏ ÖHDƏLİKLƏRİ

**1. Satıcının öhdəlikləri aşağıdakılardır:**

1. Alıcıya keyfiyyətli və istismara yararlı Malları satmaq və həmin Mallar haqqında Alıcını zəruri və düzgün məlumatlarla təmin etmək;

DocShop

2. Alıcıya üçüncü şəxslərin hüquqlarından azad Mal təqdim etmək;
3. Müqavilənin texniki və digər şərtlərinin icrasına nəzarət etmək və Malların sınaqdan və ya yoxlamadan keçirilməsi üçün şərait yaratmaq;
4. Malların çatdırılması zamanı onun məhv olması, habelə onun texniki göstəriciləri və keyfiyyətində ciddi nöqsan və çatışmazlıqlar aşkar olunduqda, Alıcının tələbi ilə Malların qiymətinin həmin qüsur və ya çatışmazlıqların həcminə mütənasib olaraq azaldılmasını və ya həmin Malların yenisi ilə əvəz olunmasını və ya onun dəyərinin Alıcıya geri qaytarılmasını təmin etmək;
5. Müqavilədən irəli gələn və öz üzərinə düşən digər öhdəlikləri icra etmək.

**2. Satıcının hüquqları aşağıdakılardır:**

1. Müqavilənin icrasına nəzarət etmək;
2. Alıcı tərəfindən Müqavilə ilə müəyyən edilmiş öhdəliklərinin icra edilməməsi və ya lazımınca icra edilməməsi nəticəsində dəyən zərərin ödənilməsini tələb etmək;
3. Müqavilə ilə müəyyən edilmiş qaydada və müddətdə ödənişlərin həyata keçirilməsini Alıcıdan tələb etmək;
4. Müqavilə və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər hüquqlara malik olmaq.

**3. Alıcının öhdəlikləri aşağıdakılardır:**

1. Müqavilənin şərtlərinə uyğun təchiz olunmuş Malları qəbul etmək və həmin Malların dəyərini Müqavilə ilə müəyyən olunmuş qaydada Satıcıya ödəmək;
2. Müqaviləyə əsasən təchiz olunan Malların miqdarı, çeşidi, keyfiyyəti və digər şərtlərinin Satıcı tərəfindən pozulması halları barədə Satıcını ağlabatan müddət ərzində məlumatlandırmaq;
3. Müqavilədən irəli gələn və öz üzərinə düşən digər öhdəlikləri icra etmək.

**4. Alıcının hüquqları aşağıdakılardır:**

1. Malların istifadəyə yararlı olub-olmamasını müstəqil və etibarlı laboratoriyada sınaqdan və ya yoxlamadan keçirmək (bundan sonra – sınaq keçirmək). Sınağın keçirilməsi Alıcı tərəfindən Satıcıya tapşırıla bilər, bu halda sınaq və ya yoxlamaların, eləcə də zəruri hallarda Malların düzgün istismar qaydalarına dair texniki tədris və təlimlərin keçirilməsi xərclərini Alıcı ödəyir;
2. Müqavilə və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər hüquqlara malik olmaq.

## 5. MALLARIN KEYFİYYƏTİ

1. Satıcı Müqaviləyə əsasən Malların keyfiyyətinə zəmanət verir və Malların yararlılıq müddəti ərzində keyfiyyətində aşkarlanan istehsal qüsurları və ya uyğunsuzluqları, eləcə də Satıcının qablaşdırma səhvi və ya Malların komplektliyi ilə əlaqəli nöqsan və çatışmazlıqları öz hesabına eyni/oxşar Malla əvəz edilməsi yolu ilə aradan qaldırmalıdır. Satıcı Malların hər hansı üçüncü şəxslərin iddia tələbləri ilə yüklü olmadığına, habelə Müqavilə imzalandığı məqamda Satıcının Mallar üçün ödəməli olduğu hər-hansı vergilər, rüsumlar və başqa ödənişlər formasında heç bir borcunun olmadığına təminat verir.

2. Malların zəmanət/yararlılıq müddətinə dair müddəalar Müqavilənin Əlavə(lər)ində ayrı qayda nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.
3. Zəmanət/yararlılıq müddətində aşkar olunmuş qüsurlar Satıcının vəsaiti hesabına mümkün ən qısa müddətdə aradan qaldırılmalıdır.
4. Alıcı Müqaviləyə əsasən təchiz edilməsi nəzərdə tutulan Malların bilavasitə təhvil verilməsi anınadək yoxlanılmasını tələb edə bilər. Bilavasitə Alıcı tərəfindən istismar qaydalarının pozulması nəticəsində baş verən çatışmazlıqlar istisna olmaqla, Malların keyfiyyətində Alıcının Satıcı ilə əvvəlcədən razılaşdırmadığı və/və ya Malların ümumi yararlılıq və/və ya zəmanət müddəti ərzində keyfiyyətinə dair aşkarlanan hər hansı gizli qüsur və nöqsanlara görə belə qüsur aşkar edilən vaxtdan etibarən 30 (otuz) gündən gec olmayaraq, Satıcı Alıcının öz seçimi ilə aşağıdakılardan birinin icrasına təminat verir:
1. Malların qiymətini qüsur və ya çatışmazlıqların həcminə mütənasib olaraq azaldacağına;
2. həmin qüsurların ağlabatan müddətdə əvəzsiz aradan qaldıracağına;
3. həmin qüsurların aradan qaldırılması üçün Alıcının özünün çəkdiyi xərclərin əvəzini ödəyəcəyinə, bir şərtlə ki xərclər müvafiq sübutlarla təsdiq edilsin;
4. Malları və ya onların hər-hansı bir hissəsini yenisi ilə əvəz edəcəyinə.

## 6. MALLARIN MƏNŞƏYİ VƏ STANDARTLAR

1. Satın alınan Malların mənşəyi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq sazişlər çərçivəsində qəbul olunmuş qərarlara əsasən satınalmaları, idxalı və ya ixracı qadağan və ya məhdudiyyət qoyulmuş dövlətlər və ya digər təşkilatlar olmamalıdır.
2. Mallar mənşə ölkəsində və ya onların idxal olunduğu ölkədə qüvvədə olan standartlara uyğun olmalıdır.
3. Mallar Alıcı tərəfindən razılaşdırılmış texniki şərtlərə uyğun istehsal olmalıdır.

## 7. MƏXFİLİK

1. Tərəflərdən hər biri Müqavilə bağlanarkən və ya Müqavilədən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi zamanı onlara məlum olmuş və Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən kommersiya sirri və digər konfidensial informasiya təşkil edən məlumatları (hamıya bəlli olan məlumatlar və təqdim edilməsi qanunla nəzərdə tutulmuş məlumatlar istisna olunur) hər hansı formada (yazılı, şifahi, texniki vasitələrdən istifadə etməklə və s.) yaymamaq, açıqlamamaq və ya qarşılıqlı razılıq olmadan digər üçüncü şəxs(lər)ə verməmək və ya digər məqsədlərlə istifadə etməmək öhdəliyini daşıyırlar.
2. Tərəflərin işçiləri, müştəriləri, təchizatçıları və bu Müqavilənin icrası ilə əlaqədar hər hansı məlumatları əldə etmiş digər hüquqi və ya fiziki şəxslər tərəfindən bu maddədə nəzərdə tutulan konfidensiallıq (məxfilik) öhdəliklərinin pozulması həmin Tərəfin məxfilik şərtini pozması kimi qiymətləndiriləcək.
3. Tərəflər müəyyən edilmiş kommersiya sirri və konfidensiallıq rejiminə riayət etməməyə, müvafiq məlumatların qeyri-qanuni yolla əldə edilməsinə və ya yayılmasına görə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Doc-shop

8. **TƏRƏFLƏRİN MƏSULİYYƏTİ**

1. Müqavilə üzrə öz öhdəliklərini tam icra etməyən və ya lazımınca icra etməyən Tərəf bununla digər Tərəfə vurduğu faktiki zərərə görə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə müəyyən olunmuş qaydada məsuliyyət daşıyır və dəymiş zərəri tam həcmdə qarşılamalıdır. Tərəflər hazırkı Müqavilədən irəli gələn şikayətlər nəticəsində yaranan və ya digər şəkildə Mallarla bağlı olan əldən çıxmış faydaya görə məsuliyyət daşımır. Bu şərt Müqavilənin xitamından sonra da qüvvədə qalır.
2. Fors-major halları zamanı dəymiş ziyana görə Tərəflər məsuliyyət daşımırlar.

**9. FORS-MAJOR HALLARI**

1. Tərəflər Müqavilə üzrə üzərinə götürdüyü öhdəliklərin, onların iradəsindən asılı olmayan, Müqavilə imzalandıqdan sonra baş verən və Tərəflərin Müqavilə üzrə hüquq və vəzifələrinin yerinə yetirilməsinə bilavasitə təsir göstərən qarşısıalınmaz hallar (Fors-Major) nəticəsində tam və ya qismən yerinə yetirilməsinə və ya lazımi səviyyədə yerinə yetirilməməsinə görə məsuliyyət daşımır, o şərtlə ki, müvafiq Tərəf fors-major halından və onun təsirindən boyun qaçırmaq üçün lazımi tədbirləri görmüş olsun.
2. Müqavilə üzrə Fors-major halları dedikdə, qabaqcadan görünə və qarşısı alına bilməyən hər hansı təbiət hadisəsi, daşqın, yanğın, zəlzələ və qarşısıalınmaz digər təbii fəlakətlər, habelə müharibə, mühasirə, dövlət hakimiyyətinin akt və hərəkətləri, devalvasiya, hökumət və ya dövlət hərəkatı, vətəndaş çaxnaşması, embarqo, hər hansı bir xammal, enerji və ya digər vasitələrin əldə edilməsinin qarşısının alınması və ya maneə olunması, tətil, lokaut və ya hər hansı növ əmək mübahisəsi kimi nəzarətdən kənar hallar və qanunvericilikdə nəzərdə tutulmuş digər hallar başa düşülür.
3. Bununla əlaqədar olaraq, Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi müddətləri Fors-major hallarının və onların nəticələrinin mövcud olduğu müddətə mütənasib olaraq uzadılır. Qarşısı alınmaz hal nəticəsində öz öhdəliklərini icra etmək iqtidarında olmayan Tərəf digər Tərəfi bu barədə dərhal, habelə müvafiq Fors major halları aradan qalxdıqdan sonra ***3 (üç)*** iş günü ərzində yazılı formada (elektron poçt, sifarişli məktub, kuryer, teleqram vasitəsi ilə, o cümlədən müvafiq yazışmanın alınmasını və tarixini vaxtını təsdiq etməyə imkan verən digər üsulla) məlumatlandırmalıdır. Fors-major halları barədə vaxtında məlumat verilməməsi müvafiq Tərəfi bu cür hallara gələcəkdə istinad etmək hüququndan məhrum edir.
4. Baş vermiş Fors-major halları və onların nəticələri ***30 (otuz)*** təqvim günündən artıq müddətə davam edərsə, Tərəflər Müqavilənin qüvvədə qalmasının mümkünlüyünü müzakirə edəcəklər. Müzakirələr nəticəsində Tərəflər arasında ***7 (yeddi)*** təqvim günü ərzində razılıq əldə olunmadıqda, hər iki Tərəf bu Müqaviləyə xitam verilməsi tələbini irəli sürmək hüququna malik olur. Belə olduğu halda Tərəflərdən hər hansı biri dəymiş zərərin əvəzini digər Tərəfdən tələb edə bilməyəcək.
5. Fors-major hallarının mövcud olması faktı və onların davam etməsi müddətləri Azərbaycan Respublikasının mülki müdafiə, fövqəladə hallar və onların nəticələrinin ardan qaldırılması üzrə müvafiq səlahiyyətli dövlət orqanlarının verdiyi arayışla və yaxud müvafiq sənaye-ticarət palatalarının sertifikat, rəy və ya şəhadətnamələri ilə təsdiq olunmalıdır.

Doc.shop

6. Tərəflərdən hər hansı birinin ödəmə qabiliyyətinin olmaması Fors-Major halı hesab olunmur.

## 10. TƏTBİQ EDİLƏN QANUN VƏ MÜBAHİSƏLƏRİN HƏLLİ

1. Hazırkı Müqavilə Azərbaycan Respublikası qanunlarına uyğun olaraq tənzimlənir və şərh edilir.
2. Müqavilənin icrası ilə əlaqədar yaranmış mübahisələr və ya hər hansı fikir ayrılıqları Tərəflərin razılığı ilə danışıqlar yolu ilə həll edilir və qarşılıqlı razılığın əldə olunması Tərəflər arasında imzalanmış və imzalandığı andan Müqavilənin ayrılmaz hissəsi hesab ediləcək əlavə razılaşma (saziş) və ya protokolla rəsmiləşdiriləcək.
3. Tərəflər arasında yaranmış mübahisəli məsələlərin və ya hər hansı fikir ayrılıqlarının həlli danışıqlar yolu ilə ***30 (otuz)*** gün müddətində mümkün olmadıqda, bu məsələlər Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən Azərbaycan Respublikasının aidiyyəti məhkəmələri tərəfindən həll ediləcək.

## 11. MÜQAVİLƏNİN MÜDDƏTİ VƏ XİTAM VERİLMƏSİ

11.1. Müqavilə hər iki Tərəfdən imzalandığı və möhürü olan Tərəfin möhürlədiyi andan qüvvəyə minir və ___ (___) il müddətinə qüvvədə qalır. Müqavilənin müddətinin bitməsinə 1 ay qalmış, hər hansı Tərəf müqaviləyə xitam vermək niyyəti barədə digər Tərəfə yazılı bildiriş təqdim etmədikdə, Müqavilə avtomatik olaraq, eyni müddətə və həmin vaxt üçün razılaşdırılmış eyni şərtlərlə uzadılmış hesab olunur. Müqavilənin müddətinin avtomatik uzadılmasının sayına məhdudiyyət qoyulmur.
11.2. Tərəflər aşağıdakı hallarda müqavilənin yerinə yetirilməsindən (tamamilə və ya qismən) birtərəfli qaydada imtina etmək hüququna malikdirlər:
11.2.1. Hər hansı Tərəf digər Tərəfə 30 (otuz) təqvim günü əvvəlcədən ünvanladığı yazılı bildiriş əsasında;
11.2.2. Malların təkrar (iki dəfə və ya daha çox) qeyri-kafi keyfiyyətdə çatdırılması və ya Satıcının Malları çatdırmasında sistematik (iki dəfədən çox) gecikmə baş verdikdə;
11.2.3. Alıcı tərəfindən sistematik olaraq (iki dəfədən çox) müqavilədə göstərilən şərtlərdən daha artıq müddətə ödəmənin gecikdirilməsi;
11.2.4. Tərəflərdən birinin fəaliyyət göstərməsinə xüsusi razılıq (lisenziya), habelə digər icazə sənədləri və ya sertifikatlarına qanunvericiliklə müəyyən olunmuş qaydada xitam verildikdə.
113. Müqavilənin müddətinin bitməsi və ya vaxtından əvvəl xitam verilməsi Tərəfləri Müqavilənin qüvvədə olan zaman yaranmış hüquq və öhdəliklərinin icrasında və qarşılıqlı hesablaşmalardan azad etmir.

## 12. MÜQAVİLƏ ÜZRƏ SƏNƏDLƏŞDİRMƏNİN APARILMASI

12.1. Müqavilə üzrə sənədləşdirmə (o cümlədən xəbərdarlıq, bildiriş, sorğu, məhsul sifarişləri üzrə müraciətlər və s.) yazılı formada aparılır və sifarişli poçt, faks, elektron poçt vasitəsi ilə göndərildiyi təqdirdə hüquqi qüvvəyə malik olacaq.
12.2. Sənədləşdirmə qəbul edən Tərəfin müvafiq sənədlərin (məlumatların) alınmasını təsdiq etməyə imkan verən üsullarla aparılmalıdır. Göndərilən sənədlərin (məlumatların) qəbul

DocShop

edilməsinə dair qarşı Tərəfin hər hansı təsdiqedici bildirişi olmasa belə, sənədlər (məlumatlar) digər Tərəfə çatdırıldığı tarixdən qüvvəyə minir.
12.3. Müqavilənin qüvvədə olduğu müddətdə təşkilati-hüquqi formasında, hüquqi ünvanında, əlaqə vasitələrində və bank rekvizitlərində dəyişikliklərin baş verdiyi Tərəf 10 (on) təqvim günü ərzində digər Tərəfi bu barədə yazılı şəkildə xəbərdar edir, əks halda Müqavilədə göstərilən məlumatlara əsaslanaraq göndərilən bütün yazışmalar məlumatlarında dəyişiklik olmuş Tərəfə göndərilmiş/qəbul edilmiş kimi hüquqi nəticələr yaradacaq.

## 13. YEKUN MÜDDƏALAR

13.1. Bu Müqavilədə nəzərdə tutulmayan məsələlər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq tənzimlənir.
13.2. Müqavilənin hər hansı hissəsinin etibarsız hesab edilməsi Müqavilənin bütövlükdə etibarsız hesab edilməsinə səbəb olmur.
13.3. Müqaviləyə hər hansı əlavə və dəyişikliklər Tərəflərin qarşılıqlı razılığı ilə yazılı formada tərtib edilərək Tərəflərin səlahiyyətli nümayəndələri tərəfindən imzalandıqdan və möhürlə təsdiq edildikdən sonra hüquqi qüvvəyə minir və Müqavilənin tərkib hissəsini təşkil edir.
13.4. Müqavilə Tərəflər arasındakı bütün əvvəlki şifahi və ya yazılı razılıq və ya sazişləri əvəz edir və Müqavilənin imzalanması ilə həmin razılıq və sazişlər öz qüvvəsini itirərək etibarsız hesab olunur.
13.5. Tərəflərdən hər hansı biri, digər Tərəfin yazılı razılığı olmadan Müqavilə üzrə hüquq və öhdəliklərini üçüncü Tərəfə ötürə bilməz.
13.6. Müqavilə Azərbaycan dilində, eyni hüquqi qüvvəyə malik olan 2 (iki) əsl nüsxədə imzalanır və Tərəflərin hər birində müvafiq olaraq 1 (bir) nüsxə saxlanılır.

## 14. TƏRƏFLƏRİN HÜQUQİ ÜNVANLARI, BANK REKVİZİTLƏRİ VƏ İMZALARI

14.1. “ALICI”:

**“_____”MMC/ASC/QSC**

VÖEN:
Ünvan:
Bank:
Bank VÖEN:
Kod:
M/h:
SWIFT BİK:
**H/h:**

Direktor:

______________________

14.2. “SATICI”:

**“______”MMC/ASC/QSC**

VÖEN:
Ünvan:
Bank:
VÖEN:
Kod:
M/h:
SWIFT:
**H/h:**

Direktor:

______________________

Doc-Shop

M.Y. M.Y.

Doc-Shop

**"________" MMC/ASC/QSC və**
**"______"**
**MMC/ASC/QSC arasında**
**________-ci il tarixli _________ №-li**
**Malların Alqı-Satqı Müqaviləsinə**

**ƏLAVƏ № 1**

**Bakı şəhəri** **______ 20__-ci il**

1. Bu Əlavəyə əsasən Satıcı tərəfindən Alıcının mülkiyyətinə aşağıdakı Malların verilməyi razılaşdırılmışdır:

| № | Malların adı, təsviri və texniki xüsusiyyətləri | Ölçü vahidi | Vahidinin qiyməti (AZN) |
|---|---|---|---|
| 1. | | ədəd/qutu | |
| 2. | | | |
| 3. | | | |
| 4. | | | |
| 5. | | | |
| **Ümumi:** | | | |

2. **Malların çatdırılma məntəqəsi:** ____________________________________________

3. **Malların təchizat müddəti:** Elektron qaimə-fakturanın təqdim edildiyi tarixdən etibarən ___ (___) iş günü ərzində.
4. **Malların ödəniş müddəti:** Müqavilə üzrə ödənişlər, Satıcı tərəfindən Alıcıya göndərilən elektron qaimə-fakturanın tarixindən etibarən ____ (____) iş günü ərzində nağdsız hesablaşmalar qaydasında aparılır.
5. Satıcı malların vahidinin qiymətində dəyişiklik etmək niyyəti barədə Alıcını ən az ___ (___) iş günü əvvəlcədən xəbərdar edir.
6. Hazırkı Əlavə Müqavilənin ayrılmaz tərkib hissəsidir və Tərəflərin səlahiyyətli nümayəndələri tərəfindən imzalandıqdan sonra özündə göstərildiyi tarixdən hüquqi qüvvəyə minir.

**TƏRƏFLƏRİN ADI VƏ İMZALARI:**

Doc-Shop

| | |
|---|---|
| "ALICI": | "SATICI": |
| **"_________"MMC/ASC/QSC** | **"__________"MMC/ASC/QSC** |
| VÖEN:<br>Ünvan: | VÖEN:<br>Ünvan: |
| Direktor: | Direktor: |
| _________________________<br>M.Y. | _________________________<br>M.Y. |

Doc-Shop